

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 244 (21.654)

22 dekabr 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Türkiyə Respublikasının iqtisadiyyat naziri Nihat Zeybekcinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv dövlətlərin iqtisadiyyat nazirlərinin Bakıda keçiriləcək görüşünün önəmini qeyd edib. Dövlətimizin başçısı Türkiyə Respublikasının iqtisadiyyat naziri Nihat Zeybekcinin Azərbaycana səfərinin həm Şuranın iclasında iştirakı, həm də ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı müzakirələrin aparılması baxımından əhəmiyyətini vurğulayıb.

Ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinə toxunan nazir Nihat Zeybekci 15 iyul hadisələri zamanı Azərbaycanın Türkiyəyə ən böyük dəstək verən ölkə olduğunu deyib.

Azərbaycan ilə Türkiyənin ən yaxın qardaş ölkələr olduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimizin bir-birinə hər zaman dəstək vermələrini təbii hal kimi dəyərləndirib.

Görüşdə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclaslarının əlaqələrimizin daha da möhkəmləndirilməsi baxımından önəmi vurğulanıb, iqtisadi sahədə əməkdaşlığımızın inkişafına dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



## 2016-cı ildə Şərur rayonunun quruculuq xəritəsi genişlənib



***Daha bir ili də başa vurmaqdayıq. 2016-cı il muxtar respublikanın tarixinə uğurlu illərdən biri kimi yazılacaq. Bəhs olunan dövrdə həyatımızın bütün sahələrində uğurlu nəticələrə nail olunması sosial-iqtisadi inkişafın dinamik xarakter almasının göstəricisidir.***

Qədim diyarımızın ən böyük bölgələrindən biri olan Şərur rayonunun timsalında bunu bütün çalarları ilə görmək olar. Bir neçə ildir ki, özünün yeni inkişaf mərhələsini yaşayan Şərurda son illər həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri, reallaşdırılan iqtisadi layihələr bölgəyə böyük yeniliklər gətirib, insanların həyat səviyyəsi xeyli yüksəlib. Rayon mərkəzi, bölgənin kəndləri füsunkar bir gözəlliyə qovuşub, yenilənib, müasirləşib. Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər bəhrələrini verib. Kənd yaşayış məntəqələrində müasir infrastruktur yaradılıb.

2016-cı ilin ötən dövrü ərzində rayonda tikinti-quruculuq və abadlıq işləri davam etdirilib. Bəzi obyektlər istifadəyə verilib, bəzi quruculuq ünvanlarında son tamamlama işləri həyata keçirilir. Belə ki, Şərur şəhərindəki Fizika-Riyaziyyat Təmayüllü Liseyin tədris korpusunun yenidən qurulması və yataqxanasının tikintisi başa çatdırılıb. Oğlanqalada 576 şagird yerlik məktəb binası və kənd mərkəzi yenidən qurulub, xidmət mərkəzi tikilib. Quruculuq tədbirlərindən Arbatan kəndinə də pay düşüb. Bu yaşayış məntəqəsində 234 yerlik məktəb binası yenidən qurulub, kənd və xidmət mərkəzləri tikilərək sakinlərin istifadəsinə verilib. Xanlıqlar kəndində "İmamzadə" ziyarətgahının, Mahmudkənddə futbol meydançasının təmiri, Yengicə kəndində müharibə əlili üçün yaşayış binasının tikilməsi də 2016-cı ilin quruculuq ərməğanlarındandır. Bu sırada rayon mərkəzinin Heydər Əliyev prospektindəki hər biri 24 mənzildən ibarət olan 3 mərtəbəli 46 və 48 nömrəli ictimai yaşayış binaları da qeyd olunmalıdır.

Hazırda rayonun bir sıra ünvanlarında təhvilə hazırlanan obyektlər var. Belə ki, Çəmənli kəndində yaxın günlərdə 3 mərtəbədən ibarət olan 360 şagird yerlik kənd tam orta məktəbinin binası, kənd və xidmət mərkəzləri, Arpaçay kəndində kənd və xidmət mərkəzləri istifadəyə veriləcək.

Rayonda əhaliyə göstərilən səhiyyə xidmətinin səviyyəsini yüksəltmək üçün həyata keçirilən tikinti-quruculuq tədbirləri 2016-cı ildə də davam etdirilib. Rayon Mərkəzi Xəstəxanası binasının əsaslı təmiri bu işlərin davamıdır.

Muxtar respublikamızın hər yerində olduğu kimi, Şərur rayonunda da tikinti-quruculuq tədbirləri bütün sahələri əhatə edir. Yol-nəqliyyat kompleksinin yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində görülən işlər bu tədbirlərin tərkib hissəsidir. Şərur rayonunda da yolların müasir tələblər səviyyəsində yenidən qurulması diqqətdə saxlanılıb. Yolların abad saxlanılması istiqamətində görülən işlər öz nəticəsini verib, nəqliyyatın intensiv hərəkəti təmin olunub. Belə ki, 5,9 kilometrlik Çərçiboğan-Arbatan, bir kilometrlik Arbatan-Çomaxtur avtomobil yolu istifadəyə verilib. 9,7 kilometrlik Dərvişlər-Arpaçay-Çəmənli-Babəki avtomobil yoluna asfalt örtük salınıb.

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən aldığımız məlumata görə, qurum 2016-cı ilin ötən dövrü ərzində qanunvericiliklə müəyyən edilmiş hüquq və vəzifələrin həyata keçirilməsi istiqamətində müvafiq işlər görüb.***

## Standartların tələblərinə nəzarət diqqət mərkəzindədir

Dövlət proqramlarında, fərman və sərəncamlarda, sessiya və müşavirələrdə verilmiş tapşırıqların icrası əsas fəaliyyət istiqaməti olub. Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı, 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı dövlət proqramlarının və komitənin fəaliyyət istiqamətləri üzrə muxtar respublika rəhbəri tərəfindən verilmiş tapşırıqların icrası xüsusilə diqqətdə saxlanılıb, ardıcıl tədbirlərin aparılması təmin olunub.

Komitənin müvafiq işçi qrupları tərəfindən istehsal müəssisələrində, ticarət, ictimai iaşə, məişət və digər xidmət sahələrində texniki normativ-hüquqi aktların tələblərinə əməl olunma səviyyəsinə, istehlak bazarında məhsulların keyfiyyətinə nəzarət məqsədilə maarifləndirmə xarakterli monitorinqlər aparılıb və bu istiqamətlərdə sahibkarlar üçün treninqlər təşkil edilib. Monitorinqlər zamanı standartların tələblərinə uyğun olmayan 2161,63 manat dəyərində yararlılıq müddəti bitmiş, keyfiyyətsiz və ya kontrafakt məhsulun sahibkarlar tərəfindən satışdan çıxarılması təmin olunub. Bu dövr ərzində keyfiyyətə nəzarət məqsədilə 1458 halda məhsulların laboratoriya analizləri aparılıb və sınaq protokolları əldə edilib.

Təsdiq edilmiş iş planına uyğun olaraq muxtar respublikaya idxal olunan qızdırıcı elektrik və qaz cihazlarının standartlara uyğunluğuna nəzarət etmək məqsədilə aidiyyəti orqanların nümayəndələri ilə birgə 115 təsərrüfat subyektində müşahidə xarakterli monitorinqlər aparılıb, standartlara uyğun olmayan cihazlar satışdan çıxarılıb.

Məlumatda bildirilir ki, muxtar respublikada istehsal edilən məhsulların markalanmasına nəzarət məqsədilə 110 istehsal müəssisəsində maarifləndirmə xarakterli monitorinq həyata keçirilib, 62 müəssisədə istehsal olunan məhsulların etiketləri orfoqrafik səhvlər və standartların tələbləri pozulduğundan yeniləri ilə əvəzlənib.

24 dövlət standartı, 1 dövlət standartına edilmiş dəyişiklik, 1 sahə standartı, dövlət qeydiyyatından keçmiş 2 texniki şərt, 1 informasiya təsnifatı standartlar fonduna daxil edilib, 1 standart, 1 sahə standartı ləğv edildiyindən və 1 texniki şərt qüvvədə olma müddəti bitdiyindən fonddan çıxarılıb.

Metrologiya xidməti üzrə 1527 təsərrüfat subyektinə məxsus 34918 ədəd ölçmə vasitələrinin yoxlanılması həyata keçirilib.

İxtira, faydalı model, sənaye nümunələri, əmtəə nişanları və coğrafi göstəricilərin mühafizəsi üzrə 52 müraciət daxil olub. Ümumilikdə, bu dövr ərzində əmtəə nişanlarının mühafizəsinə dair 64 və coğrafi göstəricinin mühafizəsinə dair 1 şəhadətnamə, sənaye nümunəsinin mühafizəsinə dair 7 patent və əmtəə nişanının qeydiyyatının qüvvədə olma müddətinin uzadılması barədə 13 bildiriş, keyfiyyət göstəriciləri yoxlanıldıqdan sonra 798 məhsulun istehsalı üçün sahibkarlara uyğunluq sertifikatları verilib.

## İnteraktiv açıq dərsi muxtar respublikanın 195 məktəbindən izləyiblər



*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən reallaşdırılan "İnteraktiv açıq dərs" layihəsi çərçivəsində Naxçıvan Dövlət Texniki Kollecində ingilis dili müəllimi Gülcahan Hacızadə tərəfindən müasir metodla ingilis dilində açıq dərs keçilib.*

Azərbaycan, eləcə də Naxçıvan haqda biliklərin möhkəmləndirilməsinə hədəflənmiş açıq dərsdə tələbələr 4 qrupa bölünüb, qruplara qrup işləri verilib. Qrup işi fərqli tapşırıqlardan ibarət olub. Qrup üzvləri sualları ingilis dilində cavablandırıb, verilən tapşırıqları yerinə yetiriblər. Onlar ölkəmiz, onun bölgələri, eləcə də muxtar respublika haqda məlumatlı olduqlarını nümayiş etdiriblər. Açıq dərs qiymətləndirmə ilə sona çatıb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamı muxtar respublikada elektron təhsilin tətbiqinin genişləndirilməsinə, təhsil müəssisələrində virtual tədris mühitinin formalaşdırılmasına, tədrisin əyaniliyinin və səmərəliliyinin daha da artırılmasına təkan verib. 2014-cü il iyulun 18-də muxtar respublika Ali Məclisində təhsil müəssisələrində tədrisin vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin distant təhsilin muxtar respublikada tətbiqi üçün müvafiq qurumlara müxtəlif tapşırıqlar verməsi, tapşırıqların uğurlu icrası bu sahədə böyük nailiyyətlər qazanılmasına imkan yaradıb. Ötən müddətdə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqənin təşkili məqsədilə mərkəzi server qurulub, ümumtəhsil məktəbləri və muzeylər bu sistemə qoşulub. Həmin sistemdən videokonfransların, müəllim-şagird dialoqunun, mühazirələrin onlayn rejimdə təşkilində, seminarların, interaktiv açıq dərslərin keçirilməsində istifadə olunur.



*Ordubad şəhərindəki 3 nömrəli tam orta məktəb*



*Şahbuz şəhərindəki 1 nömrəli tam orta məktəb*

**Xəbərlər şöbəsi**

*İstehsal müəssisələri*

# Çörək ətri...

## *"Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsində keyfiyyətli məhsullar istehsal olunur*





Nahar fasiləsinə çıxarkən jurnalist həmkarlarımdan biri, – zəhmət olmasa, beş dəqiqə gözlə, mağazadan çörək alım, Trabzon çörəyi, – deyib mağazaya tərəf getdi.

Qayıdanda – Naxçıvana Türkiyə çörəyi gətirilir? – deyə soruşdum.

Güldü:

–Yox, Türkiyə texnologiyası ilə Naxçıvanda fəaliyyət göstərən "Nilay"ın istehsal etdiyi Trabzon çörəyidir.

Əlindəki çörəyi göstərib, – keyfiyyətinə də söz ola bilməz. Dadından doymaq olmur. Artıq bir ilə yaxındır ki, bu çörəyin alıcısıyam. Sizə də məsləhət görürəm, – dedi.

– Mən neçə illərdir, zavod çörəyi alıram. "Bərəkət"in çörəyini. Özü də daşın üstündə bişirilən çörəyi. Dadına, tamına da söz ola bilməz.

Həmkarımız bizimlə razılaşdı. Seçim sizindir, – dedi. Elə bu vaxt istər-istəməz 3 çörəyi tapıb almaq üçün səhərdən axşamadək zavodun qarşısında yaranan uzun-uzadı növbələri, çörəklə imtahana çəkildiyimiz anları, insanların üzündəki nigarançılığı və sabaha ümidsizliyini xatırladım. Şükür, bu günümüzə.

Ertəsi gün Kəngərli rayonunun Xok kəndində fəaliyyət göstərən, bazarda çeşid bolluğu yaradan "Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsinə getdik. Güclü qar yağmasına baxmayaraq, yollar təmizlənmiş, hərəkətin intensivliyi təmin olunmuşdu. Naxçıvan-Sədərək magistral yolundan sağa dönüb kənddaxili asfalt yolun kənarı ilə yürüyən bir uşaqdan "Nilay" müəssisəsinin harada yerləşdiyini soruşduq.

– Çörək alacaqsınız, yoxsa şirniyyat?

– Xeyr.

Maşının şüşəsindən salona boylanan uşaq fotomüxbirin əlindəki aparatı görər-görməz:

– Bildim, kino çəkəcəksiniz.

Naəlac qalıb:

– Elə bir iş görəcəyik, – deyib uşaqla razılaşdıq.

– Yol kənarında deyil, ara məhəllələrdə yerləşir. Nabələdsiniz, tapmaqda çətinlik çəkəcəksiniz, müəssisəyədək sizə bələdçilik edim, – deyən uşaq maşına əyləşdi.

Təqribən, 150-200 metr yol gedib yüksəkliyə qalxdıq. Maşını saxlayıb ağ örpəyə bürünmüş Xok kəndinin simasına yeni çalarlar qatan quruculuq ərməğanlarının – müasirtipli məktəb binasının, kənd və xidmət mərkəzlərinin yaratdığı ecazkar mənzərəni seyr etdik.

– Mənim oxuduğum məktəbi də çəkin. Rusiyada yaşayan dayımın uşaqları görsün ki, mən necə məktəbdə təhsil alıram, – deyən uşaq üzümə baxdı. Fotomüxbir də uşağın xətri qalmasın deyə, obyektivi məktəbə tərəf tutdu:

– Bax bu da sənin məktəbin, çəkdim.

Uşaq hamımızı diqqətlə süzüb fotoaparatın ekranını özünə tərəf çevirdi:

– Baxım görüm, necə çəkdiniz?

– Zəmanə uşağıdır, – deyən fotomüxbir: – Bu kadr yaxşı alınmadı, məktəbin qarşısında dayan, çəkim, – deyib səhvini düzəltməyə çalışdı.

Uşaq maşından düşüb məktəbin qarşısında dayandı. Şəklini çəkdik. Sevincinin həddi-hüdudu yox idi.

İstər-istəməz öz yurd-yuvasından didərgin düşən günahsız insanların, uşaqların, körpələrin düşdüyü acınacaqlı vəziyyətlə bağlı xarici telekanalların yayımladığı süjeti xatırladım. Uşaqlarımızın üzündən əskik olmayan sevinci, əmin-amanlığı, sabitliyi bizə bəxş edənlərlə bir zamanda yaşamaqdan qürur duydum. Sonra da bizə mövzudankənar mövzu yaradan uşaqdan, – hansı tərəfə gedək, – deyə soruşdum.

– Düz gedib qabaqdan sağa dönəcəyik. Təqribən, 10 dəqiqəlik yol getdik.

– Çatdıq. Bax o binadır. Mən gedə bilərəm?

– Sağ ol, minnətdarıq, – deyib balaca bələdçimizlə xudahafizləşdik və söz verdik ki, çəkdiyimiz fotoşəkli mütləq ona göndərəcəyik.

Çörək ətri ətrafa yayılan, səliqə-sahmanı ilə gözoxşayan müəssisəyə yaxınlaşdıq. Ahəngdar iş prosesi hökm sürürdü. Nəzarətçidən müəssisənin rəhbərini soruşduq.

– Otağı ikinci mərtəbədədir, – deyib bizimlə birlikdə yuxarı qalxdı:

– Qonaqlarınız gəlib, jurnalistlərdir.

– Qonaq Allah qonağıdır, buyurun, keçin, – deyən sahibkar bizi otağa dəvət etdi.

Müəssisə ilə bağlı yazı hazırlayacağımızı öyrənən kimi:

– Əvvəlcə müəssisəni gəzək, – deyib ayrı-ayrı mərtəbələrdə fəaliyyət göstərən istehsal və xidmət sahələri ilə bizi tanış etdi. Əlimdəki dəftərçəmə tələm-tələsik yazdığım qeydlərə baxıb:

– Narahat olmayın, müəssisənin yaranmasından bu günədək nə lazımdırsa ətraflı məlumat verəcəyəm, – deyib bizi "Nilay"ın istehsal etdiyi, dizaynı ilə bir-birindən fərqlənən, dadlı, tamlı şirniyyatlarla bəzədilmiş çay süfrəsinə dəvət etdi:

– Buyurun, məhsullarımızdan dadın.

Sahibkar Rəşid Cəfərlinin dediklərindən:

– Daxili bazarı keyfiyyətli unlu-qənnadı məmulatları ilə təmin etmək məqsədilə kiçik bir sexdə fəaliyyətə başladıq. Açığını deyim ki, istehsal etdiyimiz məhsullara bu qədər tələbatın olacağını gözləmirdik. Uyğunlaşdırılmış binada fəaliyyət göstərən müəssisədə artan tələbatın ödənilməsi, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın tikilməsi zərurəti yarandı. Digər sahibkarlar kimi, biz də dövlət qayğısından bəhrələndik. 2013-cü ilin mart ayında müəssisə üçün Kəngərli rayonunun Xok kəndində 500 kvadratmetr torpaq sahəsi ayrıldı. Layihəyə uyğun olaraq, əraziyə elektrik, qaz və su xətləri çəkildi. İki mərtəbədən ibarət yeni bina inşa olundu, müasir istilik sistemi quruldu. Binanın birinci mərtəbəsində xammal və hazır məhsulların saxlanılması üçün anbar, lavaş və kürə çörək istehsalı sahəsi, satış bölməsi, ikinci mərtəbəsində isə şirniyyat istehsalı sahəsi, iaşə xidməti göstərilməsi üçün yeməkxana, digər yardımçı otaqlar, inzibati heyət üçün ayrı-ayrı iş otaqları yerləşir.

Müəssisədə müxtəlif çeşiddə yüksəkkeyfiyyətli məhsullar istehsal etmək məqsədilə Türkiyə və İran İslam Respublikasının bu sahə üzrə qabaqcıl təcrübəyə malik firmalarının istehsalı olan müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. 2014-cü ilin aprel ayında istifadəyə verilən müəssisədə istehsal prosesinə mərkəzləşdirilmiş qaydada nəzarət təmin edilib. İstehsal edilən məhsulun ayrı-ayrı ticarət obyektlərinə vaxtında və keyfiyyətlə çatdırılması da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb. Soyuducu kamera ilə təmin olunmuş "Mercedes", "Fiat" və "Ford" markalı xüsusi avtomaşınlar alınıb. Həmçinin müəssisədə istehsal edilən məhsullara artan tələbatın ödənilməsi üçün Naxçıvan şəhərində fəaliyyət göstərən "Cahan" Alış-Veriş Mərkəzində və "Gənclər şəhərciyi"ndə "Nilay"ın müasir avadanlıqlarla təchiz edilmiş filialı açılıb, müxtəlif çeşiddə çörək və Şərq şirniyyatları istehsalına başlanılıb. Eyni zamanda istehsal edilən məhsulların satışı üçün yeni firma mağazası istifadəyə verilib.

Daxili bazarın tələbatı öyrənilməklə istehlakçılara müxtəlif çeşidlərdə məhsullar təqdim edən müəssisədə lavaş, kürə çörəyi, Şərq, milli və Avropa şirniyyatları istehsalı sahələri fəaliyyət göstərir. Kürə (qara fırın) Türkiyədən alınıb gətirilib, odunla qızdırılır və odadavamlı kərpiclə istehsalçı şirkətin mütəxəssisləri tərəfindən hörülüb. Kürədə çörək dəmir üzərində deyil, daş üzərində bişirilir ki, bu da çörəyin keyfiyyətində mühüm rol oynayır. Fəaliyyətə başladığı ilk illərdə 2-3 çeşiddə məhsul istehsal edilən müəssisədə hazırda 60 çeşiddə məhsul istehsal olunur. Daxili bazarın tələbatından artıq istehsal edilən məhsulların ölkəmizin paytaxtı Bakı şəhərində və digər regionlarda satışa çıxarılması planlaşdırılır.

İki-üç nəfərlə fəaliyyətə başlayan müəssisədə hazırda xidmət sahələri ilə birlikdə 20 nəfər çalışır. "Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsi 2014-cü ilin yekunlarına görə, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirliklərinin və Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə keçirilən "Ən fəal işəgötürən" nominasiyası üzrə müsabiqənin qalibi kimi diplom və plaketlə, bu il avqustun 30-da keçirilən "Naxçıvan çörəkləri" festivalında isə "Ən dadlı çörək" müsabiqəsi üzrə II dərəcəli diplomla təltif edilib.

Yüksəkkeyfiyyətli məhsul istehsalı üçün müasir texnoloji avadanlıqlarla təminat əsas şərtdirsə, bu avadanlıqları idarə edəcək, istehsal edilən məhsulun texnologiyasına dərindən yiyələnən mütəxəssislərin olması da vacib şərtlərdəndir. Odur ki, işçilərin ölkəmizin paytaxtı Bakı şəhərində və Türkiyə Respublikasında fəaliyyət göstərən bu sahə üzrə qabaqcıl təcrübəyə malik müəssisələrdə təcrübə keçmələri təmin olunub. Bazar iqtisadiyyatının tələblərinə uyğun keyfiyyətli məhsul istehsal edən müəssisənin alıcı problemi yoxdur. Təkcə bir faktı qeyd edək ki, müəssisədə qara, ağ və kəpəkli çörək olmaqla, ümumilikdə, 24 çeşiddə çörək istehsal olunur. İnsan orqanizmi üçün vacib elementlərlə zəngin olan kəpəkli çörəyə tələbat daha çoxdur. İstehsal prosesinin təkmilləşdirilməsi, alıcı tələbatının öyrənilməsi və ödənilməsi də diqqət mərkəzində saxlanılıb. Yeni çeşiddə çörək istehsalı üçün Lerik rayonunda keramikadan hazırlanmış 2 ədəd daşınan təndir alınıb gətirilib. Bunun üçün müəssisədə ayrı-ayrı bölmələr yaradılıb. Daşınan təndirlərdən biri Naxçıvan şəhər "Gənclər şəhərciyi"ndə yenicə fəaliyyətə başlayan filialda qurulub və yeni çeşiddə çörək istehsalına başlanılıb. Digəri isə "Cahan" AVM-də qurulub. Yeni çeşiddə çörək istehsalı üçün məhsuldar toxum sortlarına üstünlük verilməklə ötən ilin payızında 11 hektar sahədə əkin keçirilib, sahələrdən bol məhsul götürülüb. Cari ildə də bu istiqamətdə işlər davam etdirilib, 15 hektar sahədə payızlıq taxıl əkilib. Taxıl zəmilərindən toplanılacaq məhsul bağlanmış müqaviləyə uyğun olaraq Culfa rayonunda fəaliyyət göstərən su dəyirmanlarında üyüdüləcək və bu undan istifadə ediləcək.

– Adətən, şəhərdə müəssisə qurub, ayrı-ayrı kəndlərdə filiallarını yaradan sahibkarlar haqqında çox eşitmişdik. Amma kənddə müəssisə qurub, şəhərdə filiallarını yaradan sahibkara rast gəlməmişdik. İlk rast gəldiyimiz "Nilay" Şirniyyat və Un Məmulatları İstehsalı Müəssisəsi oldu. Bir kənddə fəaliyyətə başlayıb, şəhərdə eyniadlı məhsullar istehsal edən müəssisələrlə rəqabət aparıb, geniş istehlakçı kütləsi toplamaq çətindir. Ancaq "Nilay" bunu bacarıb. Səbəbi nədir?

– İstehsal prosesinin daim təkmilləşdirilməsi, alıcı tələbatını ödəyəcək keyfiyyətli məhsul.

Biz də istehlakçıların tələbatını keyfiyyətli məhsullarla ödəməyi bacaran sahibkara işlərində uğurlar arzulayıb, "Şərq qapısı" qəzetinin səhifəsində görüşənədək, – deyib xudahafizləşdik.

Kərəm HƏSƏNOV

---

***Son günlər Naxçıvan Muxtar Respublikasında hökm sürən qarlı və şaxtalı hava şəraiti təbii qaza tələbatı artırıb. Muxtar respublikada bütün yaşayış məntəqələrinin qazlaşdırılması yaradılmış şəraitdən lazımınca istifadə etməyə imkan verir. 2016-cı il avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2016-2017-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə "Naxçıvanqaz" İstehsalat Birliyinin qarşısına da mühüm vəzifələr və tapşırıqlar qoyulub.***

## Havaların soyuq keçməsi əhalinin mavi yanacaqla təminatında çətinliklər yaratmayacaq



Birlikdən aldığımız məlumata görə, bu sahədə mühüm tədbirlər həyata keçirilib, muxtar respublikanın qaz təsərrüfatında 2016-cı il oktyabr ayının 20-nə qədər payız-qış mövsümü ilə bağlı bütün işlər başa çatdırılıb. Hazırda "Naxçıvanqaz" İstehsalat Birliyi əhalinin mavi yanacağa olan tələbatının artmasını nəzərə alaraq təbii qazın verilişini qış rejiminə uyğun olaraq tərtib olunmuş texnoloji rejimlə tənzimləyir. İstər Naxçıvan şəhərinə, istərsə də muxtar respublikanın rayonlarına təbii qaz texnoloji rejimə uyğun olaraq verilir və təbii qaz istehlakçıları keyfiyyətli və dayanıqlı mavi yanacaqla təmin olunurlar.

Məlumatda qeyd olunur ki, birliyin müvafiq strukturları təbii qaz istehlakçılarına göstərilən xidmətin keyfiyyətini, xidmətə nəzarəti və qış fəslində yarana biləcək problemlərin dərhal aradan qaldırılması üçün iş rejimini daha da gücləndirib. Belə ki, Qaz İstismarı idarələrinin xidməti ərazilərində – rayon mərkəzlərində, kənd yaşayış məntəqələrində qaz xətləri və bu xətlər üzərində quraşdırılmış tənzimləyici şkaflar, siyirtmələr təftiş edilib, korroziyaya uğramış borular dəyişdirilib. Eyni zamanda yaşayış məntəqələrində istismarda olan yaşayış evlərində, ictimai təyinatlı binalarda və digər istehlakçılar tərəfindən istismar edilən obyektlərdə qaz şəbəkəsinə, avadanlıqlarına qrafik üzrə texniki baxış keçirilib və tələb olunan işlər müvafiq qaydada aparılıb. Muxtar respublikanın qaz təsərrüfatı şəbəkəsi ərazilər üzrə qazanalizatorlar vasitəsilə yoxlanılaraq, aşkarlanan qaz sızmaları texniki-təhlükəsizlik qaydalarına uyğun olaraq aradan qaldırılıb. Mövsümə uyğun olaraq qəza təmiri üçün ehtiyat bazasına aid polad və polietilen borular, çilingər alətləri, köməkçi avadanlıqlar, işçi heyətinin peşə yönümü üzrə geyim formaları da normaya uyğun bərpa olunub, həmçinin birlik üzrə maşın-mexanizmlər, qaynaq avadanlıqlarının texniki vəziyyəti yoxlanılıb, onlar çətin hava şəraitində yaxşı işləməsi üçün tam yararlı hala gətirilib.

Məlumatda o da bildirilir ki, muxtar respublika ərazisində təbii qazın verilişi ilə bağlı heç bir məhdudiyyət yoxdur və havaların soyuq, şaxtalı keçdiyi dönəmdə də təbii qazı məhdudlaşdıracaq hər hansı planlı işlərin görülməsi nəzərdə tutulmur, yalnız qəza halları, qaz sızması baş verərsə, bu vaxt "Naxçıvanqaz" İstehsalat Birliyinin Əsaslı təmir və tikinti şöbəsi tərəfindən dərhal qəza şəraiti aradan qaldırılır. Bundan əlavə, birliyin 104 nömrəli qaynar xətti fasiləsiz fəaliyyət göstərir. Muxtar respublikada şəhər, rayon Qaz İstismarı idarələrinin qəza dispetçer xidmətlərinə gün ərzində istər əhali, istərsə də qeyri-əhali qruplarından olan təbii qaz istehlakçıları tərəfindən qaz sızması, qazın təzyiqinin düşməsi, tənzimləyicilərin dayanması və digər səbəblərə görə müxtəlif xarakterli çağırışlar daxil olur. Çağırışlar daxil olan anda hadisə yerinə gedilir, bütün işlər təlimata uyğun yerinə yetirilərək təhlükəsiz və fasiləsiz təbii qazın nəqli bərpa olunur. Eyni zamanda havaların soyuq keçməsinə baxmayaraq, Naxçıvan şəhərində ön ödənişli smartkarttipli qaz sayğaclarının quraşdırılması da davam etdirilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikada təbii qaz istehlakçılarının mavi yanacağa olan tələbatının tam ödənilməsində heç bir çətinlik gözlənilmir.

Səbuhi HƏSƏNOV

# Əcəmi Naxçıvani:
## Azərbaycan memarlığı və İslam mədəniyyəti memarı

Oktyabrın 15-də Vaşinqtonun Smitsonian Artur M.Sackler Qalereyasında "Quran sənəti: Türk və İslam memarlıq muzeyindən xəzinələr" adı altında 48 əlyazma nümayiş etdirilmişdir. Bu kolleksiyalar Smitsonian muzeyində Sakler və Frira Rəsm Qalereyasının əlyazmaları ilə birgə nümayiş etdirilmişdir. Digər İslam əsərlərindən fərqli olaraq "Qurani-Kərim" Naxçıvan Muxtar Respublikasının memarlığı, mədəniyyəti, dini adət-ənənələri və insanlarının həyatına çox güclü təsir etmişdir. Naxçıvan şəhəri Nuh Peyğəmbərin vətənidir. Nuh Peyğəmbərin türbəsinin yerləşdiyi Naxçıvan 2018-ci ildə dünya İslam mədəniyyətinin paytaxtı olacaqdır. Azərbaycanın bu regionu İslam mədəniyyətini qiymətləndirənlər, Avropa memarlığında İslam mədəniyyətinin rolunu tədqiq edənlər və qitələrarası ticarət marşrutu ilə maraqlanan beynəlxalq tədqiqatçılar üçün mühüm bir ərazidir.

1901-1902-ci illərdə Ordubad şəhərində olan Cümə məscidinin təmiri zamanı, Naxçıvanın tanınmış xəttatı Məhəmməd Təqi tərəfindən məscidin daxili divarlarına Qurandan bir neçə xətt sənəti ilə cümlə yazılmışdır. Bu kalliqrafik yazı Azərbaycan cəmiyyətinin və Naxçıvanın tarixi abidələrinin "Qurani-Kərim"lə dərin köklü bağlılığını ifadə edir. Bundan başqa, "Qurani-Kərim"də qeyd olunan Əshabi-Kəhf mağarası Naxçıvan şəhərindən 13 kilometr məsafədə yerləşir. Bu ziyarətgahda "Qurani-Kərim"dən çoxlu sayda frazalar qeyd edilmiş məscid inşa olunmuşdur.

Naxçıvan Əcəmi Əbubəkr oğlu Naxçıvani, Məhəmməd Təqi və naxçıvanlı xəttat Mirzə Süleyman Mərəndi kimi dünyaca məşhur şəxslərin vətənidir. Qeyd olunan memarlar Naxçıvan ərazisində olan Ağoğlan türbəsi, Meydan məscidi və Mömünə xatın kimi çoxlu sayda abidələrin müəllifləridir.

Sədərək kəndinin şərqində Seyid Pərinin qəbrinin üzərində Ağoğlan türbəsi tikilmişdir. Xalq arasında olan əfsanəyə görə, Seyid Pəri və onun oğlu bədniyyətli dərvişi öldürərək əhalinin firavan yaşayışını və rahatlığını təmin etmişdir. İslam dininə inananlar üçün Ağoğlan piri ziyarətgah hesab olunur. Dərin təəssürat doğuran Naxçıvan memarlıq nümunəsi möhtəşəm günbəzlə tamamlanan çoxşaxəli altıbucaq bu abidədə təcəssüm olunmuşdur. Türbənin girişi cənubdandır və üzərində tağşəkilli pəncərələr vardır. Ziyarətçilər dilək tutaraq türbənin içərisində şam yandırırlar. Türbənin ətrafındakı bulağın suyu müqəddəs və şəfaverici hesab edilir.

Smitsonian İnstitutunun alimlərinin böyük diqqətinə layiq olan digər bir abidə isə Ordubad rayonunun Dəstə kəndində olan Meydan məscididir. Məscidə giriş qərb tərəfdəndir. Məscidin uzunluğu 18,7 metr, eni 12,3 metr, hündürlüyü isə 4 metrdir. Tavan 18 standart ağac sütunun üzərində dayanıb. Məscidin şimal və cənub divarlarında 4, qərb divarında isə 2 pəncərə vardır. Giriş qapısının baş tərəfində qoyulan kitabələrin məzmunundan məlum olur ki, məscid 1610-1611-ci illərdə Əbdülxan Cavad oğlunun əmri ilə Məşədi Hüseynəlinin oğlu Hacı Məhəmməd Nəqi tərəfindən inşa edilmişdir.

Naxçıvan şəhərindəki Cümə məscidi Naxçıvan memarlıq məktəbinin nümayəndəsi Məhəmməd Təqi tərəfindən tikilmişdir. Bu memarın adı 1894-cü ildə tikilmiş və haliyədə istifadə olunan dini abidənin daxilindəki kitabədə yazılmışdır. Memar Məhəmməd Təqi məscidin daxili divarlarına aşağıdakı qeydləri yazaraq özünü təqdim etmişdir: ***"Əgər məndən sonra məscidin memarını axtarsalar, səkkizinci imamdan sonrakı adla adlanıram"***, – deyə özünü təqdim etmişdir. Məlumdur ki, şiələrin səkkizinci imamının adı Rza, ondan sonrakı doqquzuncu imamın adı isə Məhəmməd Təqi olmuşdur. Bu yolla yerli alimlər Naxçıvanın məşhur memarının adını müəyyənləşdirmişlər.

Şərq memarlığının incilərindən biri olan Mömünə xatın türbəsi Naxçıvan şəhərində olan tarixi-memarlıq abidəsidir və 1186-cı ildə Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin




Eldənizin əmri əsasında memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilmişdir. Atabəy Eldəniz arvadı Mömünə xatının qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan 1186-cı ildə başa çatdırmışdır. El yaddaşında "Atabəy günbəzi" adı ilə qalmışdır. Abidənin baştağında kufi xətti ilə bu sözlər yazılmışdır: ***"Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".*** Mömünə xatın türbəsinin ümumi hündürlüyü 34 metr olmuş, sonralar 8 metr hündürlüyündə olan xarici örtüyü dağılmışdır. Türbə yeraltı və yerüstü sərdabədən ibarətdir. Bəzi tədqiqatçılara görə, sərdabədə Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldəniz, onun həyat yoldaşı Mömünə xatın və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn olunmuşdur. 2003-cü ildə sərdabədə əsaslı bərpa işləri aparılmışdır. Sərdabə orijinal quruluşlu olub, zəngin tərtibata malikdir. Mərkəzdə yerləşmiş sütun onbucaqlının hər küncləri ilə tağşəkilli formada birləşir. Sərdabənin bu quruluşu sonralar Qərbdə, qotika memarlığında tətbiq edilmişdir. Türbənin yerüstü hissəsi xaricdən onüzlü (bütün tərəfləri kufi kitabələrlə haşiyələnmişdir), daxildən isə dairəvidir. Günbəzin daxilində xəlifələrin adı yazılmış dörd dairəvi medalyon vardır. Bişmiş kərpicdən tikilmiş abidənin küncləri çıxıntı şəklində, səthləri isə batıq formada tikilmişdir. Türbənin künclərindəki çıxıntılar kufi xətti ilə işlənmiş kitabələrlə örtülmüşdür. Bu kitabələrin uzunluğu 500 metrə çatır. Türbənin səthi quruluşu həndəsi ornamentlərin kompozisiyasından ibarət firuzəyi kaşılarla daha da zənginləşdirilmişdir. Bu tərtibatlar türbəni Avropa və Qafqaz regionunda unikal abidəyə çevirmişdir. Türbənin qərb hissəsi işlənmiş xüsusiyyətlərinə görə fərqlənir. Burada səth iki yerə bölünmüş, aşağı hissəsində giriş qapısı baştağı şəklində yerləşdirilmiş, yuxarı hissəsində isə ornamental bəzəklər həkk olunmuşdur. Memarın adı və abidənin inşa tarixini göstərən kitabələr baştağdan yuxarıda həkk edilmişdir. Türbənin sadə quruluşlu daxili səthi gəc ilə suvanmış, günbəzin iç tərəfinə 4 medalyondan ibarət bəzək vurulmuşdur. Memarlıq layihəsi, hündürlüyü, rəngləri və qeyri-adi quruluşu bu abidəyə xüsusi status verərək abidəni orta əsrlərin şah əsərinə çevirərək bütün Asiyanın memarlıq məktəblərinə təsir etmişdir. SSRİ alimi M.V.Alpatov yazır: ***"Mömünə xatın türbəsi nadir gözəllik və zəriflik abidəsidir... Həmçinin Şərqin ən gözəl klassik əsəri sayılan Nizami Gəncəvinin "Leyli və Məcnun"u kimi əbədidir".***

Bu abidə Əcəmi Naxçıvaninin nadir nailiyyətlərindən biridir. XII əsrdə Avropada bu növ memarlıq modeli mümkünsüz idi. Əlbəttə, Smitsonianlar Əcəmi Naxçıvaninin memarlıq məktəbində təcəssüm olunan İslam mədəniyyətinə və Naxçıvanda İslam mədəniyyətinin müqayisəyəgəlməz inkişafına, xəttatlığına, dini incəsənəti və nadir abidələrinə daha çox diqqət yetirməlidirlər.

**Peter TASE**
***14.12.2016***
***Amerika Birləşmiş Ştatlarının "Foreign Policy News" qəzeti***

---

*Yeni nəşrlər*

# Tarix yazan Əlincəqalaya tarixə yazılacaq mənəvi abidə




***Son illər Naxçıvanın tarixi abidələrinin təmir və bərpası istiqamətində dövlət tərəfindən həyata keçirilən möhtəşəm tədbirlər təkcə turizm sektorumuzun inkişafına öz təsirini göstərmir, həmçinin ədəbi mühit üçün də yeni və maraqlı mövzular verir.***

"Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi də bu baxımdan biz şair və yazıçılar üçün çox əlamətdar və sevimli bir hadisə kimi yadda qaldı. Tələbəlik illərində bir neçə dəfə olduğum "Əlincəqala" abidəsinə bərpa prosesi zamanı da ayrı-ayrı vaxtlarda iki dəfə getmişdim. Və gördüklərim, təəssüratlarım bir poema şəklində üzə çıxdı.

Mənimlə bərabər yazar həmkarlarım tərəfindən də bu mərhələdə bir çox şeirlər yazıldı. Tarixin qanlı-qadalı əsrlərinə şahidlik etmiş bu möhtəşəm abidə müxtəlif nəsillərin şair və yazıçılarını da məftun etmiş, bu barədə onlarla şeirlər yazılmışdır.

Bu günlərdə nəşr olunan və müxtəlif şeirlərin, poemaların və bir pyesin toplandığı "Əlincəqala" kitabında da bu günədək həmin qala haqqında yazılmış nümunələr yer alıb.

Bu yerdə iki tarixi gündən iki sitatı xatırlatmaq istərdim. Birincisi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 2014-cü il 11 fevral tarixli Sərəncamıdır ki, həmin sərəncamda deyilir: *"Əlincəqala" tarixdə Azərbaycan xalqının əyilməzlik və mübarizlik rəmzi kimi böyük şöhrət qazanmışdır"*. İkinci sitat isə bu il iyun ayının 17-də "Əlincəqala" tarixi abidəsi və muzeyinin açılışı mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən söylənən bu fikirdir: ***"Tarixi qaynaqlar əsas götürülərək dünya əhəmiyyətli abidə olan Əlincəqalanın bərpa edilməsi xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir".***

Qeyd etdiyimiz hər iki fikirdə Əlincəqalanın əhəmiyyəti göstərilməklə bərabər, onun gələcək nəsillərə çatdırılması və tanıdılması da vurğulanır. Tarixi abidələrin tanıdılmasında yazılı-mənəvi abidələrin də rolu və əhəmiyyəti danılmazdır. Bu baxımdan yazılmış şeirlərin bir toplu halında nəşr olunması burada əsərləri nəşr olunan hər bir müəllif üçün böyük diqqət və qayğı, həm də qürur və fəxrdir. Eyni zamanda oxucular üçün bir tarixi qala haqqında bütün yazılanların bir yerdən əldə edilməsi ilə də əlamətdardır.

"Əlincəqala" kitabında bu gün aramızda olmayan, dünyadan köçmüş Əliyar Yusifli, Hüseyn Razi, Elmira Qasımova, Nüsrət Kəsəmənli, Əbülfəz Naxçıvanlı, Əhməd Mahmud, Əhliman Ərəfsəli kimi şairlərin şeirləri, Nadir Əlincənin poeması yer alıb. Həmin şeirləri və poemanı xüsusilə diqqətlə oxudum. Çünki həmin müəlliflər bu gün yaşasaydılar, necə bir üslubda yazardılar, hansı məqamları qabardardılar, nəyi şeirlərində təbliğ edərdilər kimi suallar məni düşündürdü. Özözümə də "yazdıqlarında Əlincəqalanın bugünkü möhtəşəm bərpasının təsviri də mütləq bədii poetik boyalarla öz əksini tapardı" kimi bir cavab alacağımı təxmin elədim.

Qeyd olunan müəlliflərlə yanaşı, kitabda bu gün aramızda olan şairlərin şeirləri də yer alıb ki, onların da böyük əksəriyyəti qalanın bərpasından sonra yazılmış şeirlərdir. Sevindirici haldır ki, şairlərimiz tarixə bu cür ehtirama və sayğıya biganə qalmamış, öz şeirlərində Əlincəqalanın bu gününü təsvir etməklə yuxarıda qeyd etdiyim sitatda yer alan fikrə dəstək kimi öz mövqelərini nümayiş etdirmişlər.

Kitabda yer alan 4 poemanın da hər biri fərqli üslub və formasına görə seçilir. Xüsusilə Nadir Əlincənin "Əlincə" poemasının ikinci hissəsini oxuduqca Şəhriyarın "Heydərbabaya salam" poemasının forması və axıcı dili diqqəti cəlb edir:

*Daş kitabəm, daş hasarım, daş evim,*
*Daş yorğanım, daş balıncım,*
*daş kilim.*
*Daşlaşıbdı burda mənim bir elim,*
*Kim onları oyadacaq, Əlincə,*
*Ay üzüağ, ay üzüağ Əlincə.*

Bundan əlavə, Qafar Qəribin, Elxan Yurdoğlunun, Kamal Xanəgahlının poemalarında da Əlincə bu janrın geniş imkanları daxilində ətraflı şəkildə təsvir olunur, tarixi hadisələr, tarixdən bu günümüzədək gəlib çıxan xatirələr, əfsanələşmiş həqiqətlər misralaşır, bəndləşir, şeirləşir...

Yazıçı, tərcüməçi-tədqiqatçı Həmid Arzulunun "Əlincə qalası" pyesi də kitabda yer alıb. Müxtəlif dövrlərdə üç dəfə Naxçıvan teatr səhnəsində quruluş verilən əsərlə tanış olmaq istəyənlər üçün bu kitab lazımi mənbə, ünvan olacaq.

Bu kitabın ən diqqətçəkən məqamlarından biri də bədii nümunələrdə yer alan təsvirlərin foto və rəsmlərlə sintez halında təqdim olunmasıdır. Əlincəqalanın bərpa layihəsi və bu gününü özündə əks etdirən fotolar oxucularda həm də real təəssüratlar yaradacaq.

Bununla yanaşı, görkəmli rəssamların, həmçinin bu ilin may ayında Əlincəqalada baş tutan "Naxçıvan – bəşəriyyətin beşiyi" III Beynəlxalq Rəsm Festivalında iştirak edən rəssamların əsərlərindən bir çoxunun da kitabda yer alması burada verilmiş bədii nümunələrə illüstrasiyalar kimi maraqlıdır. Xalq rəssamı Toğrul Nərimanbəyovun, Şamil Qazıyevin, Məhəmmədəli Ələkbərovun, Həbibə Allahverdiyevanın, Həmzə Sadiqovun, İntiqam Ağayevin, Eldar Zeynalovun, Rəfael Qədimovun, Arzu Novruzovun, türkiyəli və iranlı rəssamlardan Nilüfər İnaltonq və Ruqayyə Pəhləvinin çəkdikləri rəsmlərin də yaradıcı təxəyyülə əsaslanması şeir və rəsm birliyinin təqdimatı kimi diqqətəlayiqdir.

*Bu kitab tarix yazan Əlincəqalaya tarixə yazılacaq mənəvi bir abidədir.*

**Elxan YURDOĞLU**

---

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirakı ilə "Naxçıvan Muxtar Respublikasının müalicə turizmi potensialı" mövzusunda maarifləndirici görüş keçirilib.***

# Dövlət Miqrasiya Xidməti növbəti maarifləndirici tədbir keçirib



Tədbiri xidmətin əməkdaşı Rüfanə Qarayeva açaraq keçirilən görüşün əhəmiyyəti haqqında danışıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Əkbər Novruzov bildirib ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası zəngin müalicəvi turizm potensialına malikdir. Qədim diyarımızda yüzlərlə mineral su mənbələrinin, Duzdağın mövcudluğu bu potensialın əhəmiyyətini daha da artırır. Qeyd olunub ki, Duzdağ Fizioterapiya Mərkəzi 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılıb. Mərkəzdə bronxial-astma və ağciyər bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan mərkəzə dünyanın bir çox ölkələrindən müraciətlər olur. Burada yer altındakı duz dağının qalınlığı 8,2 metrdir. Havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Mərkəzdə duz layları arasında duz oksigen havanın 20 faizini təşkil edir. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir.

Darıdağ Arsenli Su Müalicəxanası haqqında isə bildirilib ki, 32 kəşfiyyat quyusundan və 5 bulaqdan ibarət olan arsenli su bir çox xəstəliklərin sağalmasında mühüm rola malikdir. Darıdağ suyu karbonqazlı, mərgümüşlü, yüksək minerallaşdırılmış xlorlu-hidrokarbonatlı-natriumludur. Polşada Kudova, Almaniyada Dürkgeym, Rusiyada Sineqorsk sularının oxşarıdır. Lakin suyun tərkibindəki mineral duzların mütənasibliyi ilə Darıdağ suyu onlardan daha üstündür.

Vurğulanıb ki, son illərdə hər iki müalicəxanada müasir şəraitin yaradılması bu müəssisələrə müraciət edənlərin sayının artmasına səbəb olub.

Slaydlar vasitəsilə iştirakçılara ətraflı məlumat verildiyi tədbirdən sonra əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olublar.

**Xəbərlər şöbəsi**

Həkim məsləhəti

# İnsan özü-özünün həkimi olmalıdır

***Şaxtalı havalarda insanlar bəzi sağalması çətin olan xəstəliklərə tutulurlar. Qrip xəstəliyi bu sırada öndə gedir. Bəs asanlıqla yoluxub gec sağaldığımız bu tip xəstəliklərdən necə qorunmalı, onlara qarşı hansı tədbirləri görməliyik? Mövzu ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin həkimi Məmmədəli Ələkbərov ilə həmsöhbət olub, bu xəstəliklərin yoluxma yolları, profilaktikası və sair barədə məlumat aldıq:***

– Havanın temperaturunun birdən-birə dəyişməsi nəticəsində bəzi xəstəliklər yaranır ki, bunlara da mövsümlə əlaqədar törəyən xəstəliklər deyilir. İlin bu aylarında bronxit, pnevmoniya, qrip və sair kimi soyuqdəymə xəstəliklərinə rast gəlmək olar. Hava tədricən dəyişdiyi zaman insanlar buna uyğunlaşır ki, bu da sadaladığımız mövsümi xəstəliklərə yoluxanların sayını aşağı salır. Əks halda, yəni havaların kəskin şəkildə dəyişməsi, xüsusilə də immuniteti zəif olan insanlarda xəstəliyə yaxalanmaq riskini daha da artırır.

İnsanlar sadaladığımız bu xəstəliklərdən daha çox qripə yoluxurlar. Buna soyuqdəymə də deyirlər. Laboratoriya şəraitində bu xəstəliyin törədiciləri, yəni viruslar tapılmayıbsa, o, sadəcə, kəskin respirator virus infeksiyasıdır. Qrip yuxarı tənəffüs yollarının selikli qişasını zədələyən intoksikasiya əlamətləri ilə keçən iltihablı xəstəlik kimi çox geniş yayılıb. Xəstəliyin özünün gizli vaxtı olur ki, buna da tibdə inkubasiya dövrü deyilir. Bu dövr qrip virusları orqanizmə düşdükdən sonra onun ilk əlamətlərinin meydana çıxmasına qədər olan zaman kəsiyidir. İnkubasiya dövrü orqanizmdən asılı olaraq 3 saatdan 3-4 günə qədər davam edə bilər. Deməli, xəstəliyin gizli keçdiyi bir neçə gün ərzində insan qripə yoluxduğundan xəbərsiz olur. Xəstəlik əksər hallarda hava damcı yolu ilə keçir. Yəni xəstəliyin yayıcıları xəstəliyə tutulmuş insanlardır. Həmin insanlar asqırdıqda, ya da öskürdükdə bu viruslar 3 metr məsafəyə qədər yayılır. Beləliklə, onlarla eyni otaqda, ya da yaxınlıqda olan insanların həmin xəstəliyə tutulma ehtimalı daha çoxdur. Viruslar sağlam insanların yuxarı tənəffüs yollarına, yəni burun boşluğuna düşərək orada selikli qişada çoxalaraq xəstəlik yaradırlar. Xəstəlik 95 faiz hallarda bu yolla keçir.

Qrip təmas yolu ilə də keçə bilər. Belə ki, xəstəliyə tutulmuş şəxs avtobusda tutacaqlara, qapının dəstəyinə və sair kimi ictimaiyyətin istifadə etdiyi yerlərə toxunduqdan sonra sağlam adamın da həmin yerə əlini vurması ilə viruslar onun əlinə nüfuz edir.

Məmmədəli həkimin sözlərinə görə, 1-5 yaşa qədər olan uşaqlar xəstəliyə daha tez yoluxurlar. Buna səbəb isə onların orqanizmində müdafiə sisteminin hələ tam şəkildə formalaşmaması, immunitetlərinin zəif olmasıdır.

Qrip 7-10 gün davam edən xəstəlikdir. Halsızlıq, oynaqlarda ağrı, hərarətin qalxması, quru öskürək, boğazda udqunma zamanı ağrı və qıcıqlıq, hətta bir çox hallarda göz ətrafında ağrıların olması onun ilk əlamətləridir. Bu əlamətlər 3-4 günə qədər davam edir, sonra bu əlamətlər nisbətən keçir və qripin sağalma dövrü başlayır.

Məmmədəli Ələkbərov deyir ki, qripin əsas əlamətlərindən biri hərarətin olmasıdır. Bu zaman bədən temperaturu 37,5-dən 38-39 dərəcəyə qədər qalxa bilər. Valideynlər bilməlidirlər ki, uşaqlarda hərarət qalxdığı zaman onu müxtəlif dərmanlardan istifadə edərək aşağı salmaq lazımdır. Hərarətin qalxmasının 3 dərəcəsi var – mülayim, orta və güclü. Normal bədən temperaturu 37 dərəcə hesab edilir. Ancaq 38 dərəcəni də normal saymaq olar. O, hərarətin qalxmasının orta dərəcəsi kimi müəyyənləşdirilir. Xəstəlik zamanı bu dərəcədə hərarəti aşağı salmağa tələsmək lazım deyil. Çünki hərarətin qalxması orqanizmin müdafiə reaksiyasıdır. Yəni orqanizm həmin infeksiyaya qarşı qüvvələrini səfərbər edir. Onu aşağı salmağa səy göstərildiyi zaman qripin törətdiyi virusa qarşı immunitet əmələ gəlir. Hərarət 38-38,5 dərəcədən yuxarı olduğu zaman artıq hökmən tədbir görülməlidir.

Qripə yoluxan zaman mütləq həkimə müraciət edilməlidir. Bəzi insanlar ona yüngül xəstəlik kimi baxır, qripin özözünə keçəcəyini düşünərək ev şəraitində ondan qurtulmağa çalışırlar. Lakin o heç də düşündüyümüz qədər asan bir xəstəlik deyil. Onun ağırlaşma halları da ola bilər. Buna görə də yalnız həkimin məsləhət gördüyü dərmanlardan istifadə edilməlidir. Xəstəliyə tutulduqda 5 gündən az olmamaqla yataq rejimi məsləhət görülür. Çünki qrip yoluxucu xəstəlikdir. Xəstə işlədiyi, təhsil aldığı kollektivdə bunu sürətlə yaya bilər. Xüsusilə də xəstə uşaqların bağçalara getməsi düzgün deyil. Əksər hallarda isə xəstəliyə yoluxduqdan bir neçə gün sonra hərarət aşağı düşür və xəstə özünü sağalmış kimi hiss edir. 2-3 gündən sonra yenidən xəstənin halı pisləşir və hərarət yüksəlir. Bu isə ağırlaşmanın xəbərçisidir. Qripin ağırlaşmaları bunlar ola bilər: pnevmoniya, yəni ağciyərlərin iltihabı xəstəliyi, otitlər, yəni qulağın iltihabı. Daha ağırlaşması və nadir təsadüf olunan xəstəliyi meningitdir. Bu, beyin qişalarının iltihabı xəstəliyidir.

Bir çox xəstələr müraciət edərək bu xəstəliyə qarşı peyvəndin olub-olmaması ilə maraqlanırlar. Bəli, qrip xəstəliyinə qarşı peyvənd var, lakin xəstəliyin törədiciləri çox olduğuna görə peyvənd vurula bilmir. Xəstəliyə qarşı simptomatik müalicə aparılır. Yəni burun tutulubsa, burun damcılardan, hərarət qalxıbsa, müxtəlif hərarət endirici dərmanlardan istifadə edilməlidir. Uşaqlara 14 yaşına qədər hərarət zamanı geniş istifadə olunan aspirin verilməməlidir. Onlar həkim məsləhəti ilə siroplardan istifadə etməlidirlər.

Digər bir məsələ isə antibiotiklərdir. Qeyd edək ki, antibiotiklər viruslara təsir etmir. Buna görə də xəstəlik ağırlaşmadığı dövrlərdə antibiotiklərdən istifadə edilməsi məsləhət görülmür. İstisna olaraq hamilə qadınlarda və uşaqlarda xəstəlik ağırlaşdığı zaman profilaktik məqsədlə həkim məsləhəti ilə onlardan istifadə edilə bilər. Digər hallarda simptomatik müalicə aparılmalıdır.

Məmmədəli həkimin sözlərinə görə, xəstəlik zamanı çoxlu maye qəbul edilməlidir ki, orqanizmdə olan zərərli maddələr xaric olunsun. Orqanizmi möhkəmləndirmək üçün tərkibində C vitamini olan ərzaqların qəbulu da vacibdir. Ən əsası da mövsümə uyğun geyinməli, ayimizi isti saxlamalı, otağımızın havasını tez-tez dəyişməliyik. Çünki viruslar Günəşin ultrabənövşəyi şüaları altında tez məhv olurlar. Sağlam vaxtlarda qeyri-iş günlərində sarımsaq yemək də bu xəstəliyin yaranmasının qarşısını alır. Çünki sarımsaq təbii antibiotikdir.

Son olaraq hər birimiz özümüzü bu xəstəliklərdən qorumalı, yoluxduğumuz zaman isə onlara sıradan bir xəstəlik kimi yanaşmayıb həkimə müraciət etməli, onun məsləhəti ilə müalicə olunmalıyıq.

Mövsümlə əlaqədar havaların soyuq keçməsinə baxmayaraq, hava şəraiti ilə mübarizə apararaq xəstəliklərdən yayına bilərik. Unutmayaq, insan özü-özünün həkimi olmalıdır!

Fatma BABAYEVA

***Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda rəsm müsabiqəsi keçirilib.***

## Yaradıcı gənclər və sağlamlıq imkanları məhdud uşaqların əl işlərindən ibarət müsabiqə keçirilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu və Rəssamlar Birliyinin təşkilatçılığı ilə keçirilən müsabiqədə yaradıcı gənclərin, həmçinin fiziki imkanları məhdud gənclərin 40 əl işi nümayiş olunub.



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva Naxçıvan Muxtar Respublikasında yaradıcı gənclərə göstərilən böyük dövlət qayğısından danışıb. Bildirilib ki, məhz bu qayğı nəticəsində gənc rəssamların yaradıcılıq qabiliyyətləri daha yaxşı inkişaf edir, eləcə də sağlamlıq imkanları məhdud uşaqların, gənclərin cəmiyyətə inteqrasiyası təmin olunur. Elə bunun nəticəsidir ki, hər il gənclər təşkil olunan sərgi və müsabiqələrdə daha fəal iştirak edirlər.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev çıxış edərək muxtar respublikamızda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar, təhsil infrastrukturunun yenilənməsi, kadr potensialının təkmilləşdirilməsi və hər bir təhsil alan şəxsin layiqli vətəndaş kimi cəmiyyətə inteqrasiyası üçün əlverişli şəraitin yaradılması barədə danışıb, keçirilən rəsm müsabiqəsinin gənclərin bacarıq və qabiliyyətlərinin üzə çıxmasında mühüm rol oynadığını bildirib.

Müsabiqədə İsmayıl İsmayılov I, Sulayə Altmammadova II, Nigar Vəliyeva III, 10 gənc isə həvəsləndirici yerlərə layiq görülüblər. Qaliblərə diplom və qiymətli hədiyyələr təqdim edilib.

Sonda sərgiyə baxış olub. Qeyd edək ki, müsabiqəyə ölkəmizin, muxtar respublikamızın tarixinə və təbiətinə həsr olunmuş yağlı və sulu boya ilə çəkilmiş rəsmlər çıxarılmışdı.

Hafizə ƏLİYEVA

## *“Buta”* muğam ansamblının konserti olub



***Dekabrın 21-də Naxçıvan Dövlət Filarmoniyasının zalında Naxçıvan Musiqi Kollecinin “Buta” muğam ansamblının konserti olub.***

Tədbirdən əvvəl konsertin aparıcıları bildiriblər ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamlarına əsasən bu təhsil ocağının 30 və 40 illik yubileyləri qeyd olunub. Bu illər ərzində kollecdə milli musiqi alətlərimizin və xalq mahnılarımızın yaşadılması, eləcə də klassik və müasir dünya bəstəkarlarının öyrənilməsi, gənc musiqiçi kadrların yetişdirilməsi sahəsində uğurlar əldə edilib. Məktəbin məzunları ölkəmizin mədəniyyət müəssisələrində, uşaq musiqi məktəblərində çalışaraq musiqi mədəniyyətimizə xidmət göstərirlər. Kollec təhsil müəssisəsi kimi fəaliyyəti ilə bərabər, həm də respublika üzrə keçirilən mötəbər tədbirlərdə, el şənliklərində konsert proqramları ilə çıxış edir. 40 ildən artıqdır ki, kollecdə müxtəlif musiqi kollektivləri də yaradılıb. “Buta” muğam ansamblı da bu kollektivlərdən biridir. Kollektivin üzvləri muğam-dəsgahlar, xalq mahnı və təsniflərindən ibarət maraqlı konsert proqramı ilə ictimaiyyət qarşısında çıxış edirlər. “Buta” muğam ansamblı kollektivinin Naxçıvan Dövlət Televiziyasındakı çıxışları da maraqla qarşılanır. Gənc muğam ifaçıları muğam sənətimizi geniş təbliğ etməklə yanaşı, keçirilən müsabiqələrdə də iştirak edirlər. Qeyd olunub ki, Yaxın və Orta Şərq musiqisində segah yalnız bir növdən ibarət olduğu halda, Azərbaycan musiqisində segahın bir neçə növü vardır. Özünəməxsus tonallıq sistemi olan Azərbaycan segahı variantlarının xarakteri, səslənməsi, yozumu cəhətdən fərqlənir. Böyük bəstəkarımız Üzeyir Hacıbəyov segah muğamının estetik psixoloji əhəmiyyətini xüsusilə qeyd edib.

Vurğulanıb ki, ilk dəfə XVIII əsrdə yaşamış Azərbaycan xanəndəsi Mirzə Hüseyn tərəfindən ifa olunan və onun adı ilə adlandırılan bu segah bu gün də sevilə-sevilə ifa edilir. Bu gün kollecin “Buta” ansamblı “Mirzə Hüseyn segahı” dəsgahı ilə muğamsevərlərin görüşünə gəlib.

Sonra kollecin “Buta” ansamblının ifasında “Mirzə Hüseyn segahı” dəsgahı səslənib. Naxçıvan Musiqi Kollecinin xanəndəlik ixtisasları üzrə təhsil alan tələbələri Mürsəl Tağılı, Pərviz Quliyev, Cavid Babayev və vokal ixtisası üzrə təhsil alan tələbəsi Anar Rzayevin təqdimatında “Mirzə Hüseyn segahı” dəsgahı alqışlarla qarşılanıb. Kollektivin Azərbaycan klassik poeziyasından seçdiyi qəzəllər də xoş təsir bağışlayıb.

## Muzey bələdçiləri üçün seminar-treninqlər davam etdirilir

***Muxtar respublikamızın muzey bələdçiləri üçün seminar-treninqlərin keçirilməsi davam etdirilir. Növbəti belə tədbirin ünvanı “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi olub.***



Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminar-treninqdə nazirliyin Mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva “Muzey bələdçisinin davranış qaydaları” mövzusunda çıxış edib.

Qeyd olunub ki, ötən ildən başlayaraq muzey bələdçiləri üçün seminar-treninqlərin keçirilməsində əsas məqsəd muzeylərdə ekskursiya işinin təşkili ilə bağlı mövcud nöqsan və çatışmazlıqları aradan qaldırmaq, muzey bələdçilərinin nəzəri və praktik bilik səviyyəsini yüksəltməkdir.

Bildirilib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Muzeylərimiz üçün yeni binaların inşa olunması, onların təmiri, yenidən qurulması və maddi-texniki bazasının möhkəmləndirilməsi işin səviyyəsinin yüksəldilməsinə xidmət edir. Görülən işlər muzey işçiləri qarşısında da mühüm vəzifələr qoyur. Bu gün muzeylərimizdə hazırlıqlı, bilikli, xarici dilləri bilən, işlədiyi mədəniyyət ocağı haqqında ətraflı məlumata malik bələdçilərə ehtiyac çoxdur.

Diqqətə çatdırılıb ki, muzey bələdçiləri müxtəlif səviyyəli insanlarla, məktəbli və tələbələrlə, yaşlı nəsillə işləməyi bacarmalı, nəzakət və davranış qaydaları ilə muzeyə gələnlərdə xoş təəssürat yaratmalıdırlar.

Sonra “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində muzey bələdçisinin təqdimatında muzey ekspozisiyasına baxış olub və ekskursiya mətni müzakirə edilib, muzey bələdçilərinə metodik tövsiyələr verilib.

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti*

ŞƏRQ qapısı

Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 961